

■ Məmməd Xəlilov

***Rusiyanın tanınmış yazıçılarından olan Məmməd Xəlilov (1961) Dağıstanda anadan olub, əslən Şirvandandır. Orta məktəbi bitirəndən sonra ali təhsil alıb, müxtəlif işlərdə çalışıb. Ötən əsrin 80-ci illərindən RF-nın Yaroslavl vilayətində yaşayır, özəl "Alyans" şirkətində çalışır.***

***M.Xəlilovun ədəbiyyata sevgisi klassik ədəbiyyatın gözəl bilicisi olan atasından keçib, onun dilindən eşitdiyi Nizami, Füzuli, Vidadi, Vaqif poeziyasının vurğunu olub. Özü də yaradıcılığa erkən yaşlarından başlayıb. İndi bir sıra poeziya və nəsr toplularının müəllifi, Yaroslavl vilayət yazıçılar təşkilatının rəhbəridir.***

**Tanınmış şair Nurafizin tərcüməsində M.Xəlilovun sonetlərini təqdim edirik.**

Sandım ehtirasım tamam solubdu,
Nə varsa yanıbdı, - çoxdan kül düşüb.
Ruhum öləziyib, cismim büzüşüb,
Kiçik xoşbəxtliyə qane olubdu.

İnamla boşluğa pərdə çəkirdi,
Qolumda bahalı saatım zənglə.
Cansız cisimlər də çəhrayı rəngdə...
Göz yaşı pis hava kimiydi, - kirdi.

Simfoniya çalırdı ulduzlu gecə,
Ötərgi, işvəli qadın baxışı
Həyacan verirdi hərdən keçənə.
Arzuya cumurdu donmuş qəlb öncə, -
Kəskin ot qoxusu gəldi, nə yaxşı,
Doyumcul rahatlıq çatmadı yenə...

* * *

Gözə görünmədən qaynar yer altda
Vulkana boy verər bu qoca dağlar.
Bir də hiddətindən lap dəli olar,
Dəniz tək uğuldar, qabarar hətta.

Zorla ağrısını gizlədər ürək,
Üzümdə təbəssüm, baxışımda qəm.
Elsinor dağında tənha Hamletəm,
Səssiz iniltiylə çırpınıram tək.

Səbəb - təsadüfən əlimə keçən
Dəftərdə yazılmış əyri-üyrü söz
Alın yazısıymış, - ayrılıq adda.

Bəs edər, dünənki günüm və gecəm,
Uşaqlıq sirrindən eşqə salar köz,
Qalayıb, illəri yenər inadla.

* * *

Qorxdum məhəbbətim cavabsız qala...
Köhnə cəhalətlə çırpınıb sonda,
Sandım hər cizgisi doğma siman da
Qəlbimə bir sevgi yanğını sala.

Bildim ki, baxışın görünməz daha,
Nəfəsim çıxacaq son hənirimlə.
"Olmaz!" - İradədən güclüsə, dinlə,
Bu tufan asanca boy verməz aha.

Qəlbim bu fikirlə barışsın necə?
İllərin sildiyi simanı hər an,
Dərhal tanıyacam, çoxluq olsa da.

Beləcə, yuxuma girir hər gecə,
O zərif, vüqarlı, şahanə siman
Qəlbimə sonucsuz ağrı salsa da.

* * *

De yuvan hardadı, - cənub çöllərdə,
Ya qara bələnmiş o sərt diyarda? -
Şaxta da at çapar altı ay orda,
Qarlı örpəkləri göy öpən yerdə?

Üz-üzə gəlsək də çoxluq içində,
Qızarmı qəlbimiz xoş sözlə-neylə?
Ya Yeni Babildə sözlər gileylə
Geri qayıdacaq daş-qəlb biçimdə.

Hər vaxt olduğu tək qaşların incə, -
Aydın xətlərinin zərif əyrisi
Zaman örtüyündən keçib qan salar.

O mavi örtükdən əl üzülüncə
Döyər ürəyimi qanımın səsi,
Oyadıb yaddaşı vaxtı yan salar.

* * *

Məni pəncərənə gətirən Yoldu,
İnamla dolmazdı qəlbim bəlkə də,
Pərdə arxasında zərif kölgədə
Allahın rəhmiylə istəyim buldu.

Kandara qədərki yollar çətindi,
Hər şeyi ölçürük arşınımızla:
Buludlar yağışı eyən tək yazda,
Hər şey vədəsində yetişir indi.

Sandım ki, ələnən yaz yağışı tək,
Yudu aramızdan keçilməzliyi,
Önlənməz, amansız olan sevgi də.

Ruhuma işıqla bələdi bələk, -
Ən ali bəxşişlər dəyişər nəyi?
Allahın lütfüdü elə, bəlkə də.

* * *

Dönüşdən qaçmağa güman yoxdusa,
Onda ayrılırıq nəyin xətrinə?
Adicə dəftərin yazı sətrinə
Aldanış bu yaşda bizi yıxdısa...

Onda o ağ saçlar, ölgün baxışlar,
Bizə itkilərdən miras-pay çəkər.
Gənclik çağımızdan bilirdik, əgər,
Sevgi güzəştsizsə, de, kim bağışlar?

Ağlımın sevgiyə öyüdü - acı,
Dəyəri olmaz ki ölməz payımın, -
Bu dünya içimdə olammırsa ram.

Mən ki, cavabdehəm, həm iddiaçı...
Əks-sədasıyam öz harayımın, -
Çəkilməz ağrıma layla çalıram...

* * *

Bir tufan qopdu ki, axşamdan bəri,
Ağaclar aşdılar şam meşəsində.
Hətta kainat da sındı səsində, -
Sanki silkələndi Yerin məhvəri.

Təbiət dəlisov hiddətli səslə,
Naxışla toxudu sərt havasını.
Gücsüzlük titrətdi qəlb havasını, -
Keçmiş də dilləndi yeni həvəslə.

O köhnə hisslərim alışa bildi, -
Adi və əbədi ayrılıq kimi,
İçimdən çölümə çıxan ocaqsan.

Çox illər sonrası sevgim tuş gəldi,
Bilirəm, yanımdan ötüb qəlbimi,
Sonda alovunla yandıracaqsan..

* * *

...Və tufan səngiyib, hər tərəf laldı,
Məhşər də olmayıb zinrik gecədə?
Dan üzü ağappaq qarın küçədə
Laciverd rəngi də ağlımı aldı.

Gecənin hay-küyü sovurub qarı,
Süpürüb getmişdi tufan nə varsa.
Çöllərin sükutu, eh, bərq vurarsa, -
Gözəlmiş seyr etmək uzaq yolları.

Bu şam meşəsinin qorxu - hakimi,
Bir gün də əriyib mavi qar olsam,
Oxşarın soyuqla gedərəm sona.

Allahın adını çəkdiyim kimi, -
Ordaca yanğıyla yıxılıb qalsam,
Adın titrəyişlə qovuşar "O"na.

* * *

Verdiyi bu ali yükündən yana,
Şükürlər söyləyək bəxtə, taleyə.
Hər kəs qu nəğməsi oxumur deyə,
Hər vədə bəxş olmur bu yük insana.

Bu sevgi saqası dönsün nağıla,
Tikan və qızılgül vəhdəti kimi.
Belə ilmələsin əlin əlimi,
İlmə tutammarıq başqa cür bağla.

Çəkərəm, sən çəkə bilməyən qəmi,
Yaradan haqq bilib sıxar canımı, -
Bundan da yuxarı pay varmı, söylə?

İlahi Dərd verib mənim töhfəmi,
Damarda oynayan isti qanımı
Oxşaram Petrarka sonetləriylə...

* * *

İtki toranlığı gözdə səyriyir,
Bir anda toxunan naxışlar sayaq.
Tökmə sütunlar da, hisslər də oyaq,
Kölgə tək fırlanıb səssiz əriyir.

Dəyərli bəxşişlər, ilahi fikir,
Çapıb vicdanını neçə nəslin,
İtki və qazancın mirvari fəsli, -
Sadə həqiqətdir, zamandan keçir.

İllərin su kimi axdı, karıxma,
Sönən ümidlərin çoxalıb külü, -
Bayquş hikmətinin ərpi, deyərəm.

Narahat etmərəm səni, heç qorxma,
Gecikmiş, qızılı sevgimlə, gülüm,
Könül tavanını silkələyərəm...

**Rus dilindən çevirəni**
**NURAFİZ**